# MEHEMMED TEQİ XAN
# SOLTANZADE PÜSYAN

Mehemmed Teqi xan Mehemmedbağır xan oğlu Soltanzade Püsyan 7 avqust 1891-ci ilde Tebriz şeherinde herbi mülkedar ailesinde doğulmuşdur. Atası mayor Mehemmedbağır xan Inayemüssultanın nesli XIX esrin II yarisında Şimali Azerbaycandakı Şerur mahalının Püsyan kendinden köçüb Tebrize getmişdi. Teqi xanın familiyası (soyadı) Soltanzade olsa da, kendin adı ile Püsyan çağrilırdı.

Teqi xanın nesli esasen igid, döyüşken herbçilerden ibaret idi. Onun atasının emisi Abbasqulu ağa Mezher texellüsü ile gözel qezeller yazırdı. Sonralar Xorasanda quldurlarla vuruşmalarda öldürülmüşdü. Iki emisinden biri mirpenc Mehemmedeli xan hem şair, hem de Tebriz Zehebiyye tayfasının başçısı idi. O, herbçi olmuş, 1880-ci ilde vefat etmişdir. Diger emisi, general Hemze xan Püsyan ise 1915-ci ile qeder yaşamışdir.

Mehemmed Teqi xanın böyük qardaşı Qulamrza xan l Dünya müharibesi dövründe Fars eyaleti jandarm qüvvelerinin reisi olmuşdur. Eyaletde ingilisler eleyhine qaşqaylarin üsyanı başlandıqda Qulamrza xan da qardaşı Eliqulu xanla onlara qoşulmuş, Şirazdakı ingilis konsulunu tengistanlılara vermişdi. Böyük mülkedar Qevam Şirazi ile ilk vuruşmalarda esir düşmemekden ötrü iki qardaş bir-birine ateş açmışdilar. (***Kerim bey, deyirem o vaxt kisiler var imis***). Üçüncü qardaşı Heyderqulu xan Püsyan ise Mehemmed Teqi xanla beraber Xorasan üsyanında iştirak etmişdi.

Palkovnikin anası Izzetülhaciye xanım meşhur azadlıqsever qadinlardan ve Meşrute herekatının iştirakçılarından biri idi. Setterxanin teşebbüsü ile mücahidlere geyim tikilmesi, tibbi yardım gösterilmesi sahesinde xidmetini esirgemeyen qadınlar arasında İzzetülhaciye xanım ferqlenirdi. Şübhesiz ki, bela ananın terbiyelendirdiyi oğlanlar qehreman olmalı idiler.

Mehemmed Teqi xan 1899-1905-ci illerde Tebrizin "Loğmaniyye" medresesinde ders oxumuş, fars ve ereb dillerini öyrenmişdi. Bundan başqa o, mentiq, yeni elmler, ev şeraitinde ise aile enenesine göre fransız, rus dillerine, riyaziyyata, tarixe, edebiyyata da yiyelenmişdi.

Bundan sonra o, tehsilini artırmaq meqsedile 1906-cı ildeTehrana uz tutmuş, 5 il "Medreseyi-nizami” adlı herbi zabitlik mektebinde oxumuşdu. 1911-ci ilde "Medreseyi-nizami”ni bitirib leytenant rütbesile herbi qulluğa girerek, kapitanlıq derecesinedek yükselmişdi.

Mehemmed Teqi xan Tehranda iken hemyerlisi, meşruteçi Haci Mehemmedağa Tanbaz ve oğlu, inqilabçı Sadiq Tanbazın amallarindan xeyli tesirlenmişdi. Şübhe yoxdur ki, Tehranda gezleri qarşisında cereyan eden hadiseler, xüsusen de ehval-ruhiyyesini inqilabi semte yöneltmişdi.

O, herbi mektebde oxuyarken altı ay muellim ve tercümeçi vezifesinde de işlemiş, sonra adyutant-mütercim vezifesini saxlamaqla, Sirab *(Hemedan)* herbi destesinin komandiri olmuşdur.

O dövrde Qacar seltenetinin zeifliyi uzunden ölkenin bir sıra eyaletleri ile paytaxt arasında elaqeler yox derecesinde idi. Yollarda ağalıq eden feodal herbi destelerini ve quldurlari temizlemekden ötrü amerikalı polkovnik Merilin komandirliyi ile gönderilmiş batalyon da bir iş göre bilmemişdi. Genc Mehemmed

Teqi xan ise öz destesi ile 1914-cü ilde Tehran-Hemedan-Kirmanşah yolunu açmışdi. Bu ağır ve mürekkeb emeliyyata göre onun üçün mayor rütbesi, elece de qızıl medal istenilse de, herbi nazirlik genc koman-dirin yasinin azlığını behane getirib, mayorluq rütbesini esirgedi ve yalnız qızıl medal verdi. (***Baxin, o zaman onun 23 yasi var idi. Elbette, bele bir gencin gelecekde neler edeceyini evvelceden proqnozlasdirmaq olardi).*** O dövrde neşr olunan “Tehran”, “Hemedan”, “Kirmanşah” qezetleri onu "en cesaretli zabit", "kendlilerin dadına çatan" adlandırmışdi.

M.Püsyan sonra başçılıq etdiyi jandarm eskodronu ile Suristana getmiş, Brucerd döyüşlerinde quldurlari dağıtmış, bazı mürtace xanlari habs etmekle emin-amanlıq yarada bilmişdi. Bu çarpışmalarda yaralanan komandir sağaldıqdan sonra mayor rütbesi almış ve Hemedan batalyonunun reisi teyin edilerek 1915-ci ilin 14 dekabrinadek hemin vezifede çalışmışdi.

O, Hemedanda iken Kirmanşahda teşkil olunmuş Iran milli hökumeti silahlı qüvvelerinin bu hissesine komandir qoyulur. Bu müddetde genc azeri zabiti Bidserx, Qezvin, Kendevar, Kirmanşah cebhelerinin komandiri vezifesini daşımış, ixtiyarindakı 1500 neferlik atlı ve piyada hisselerle rus ve ingilis qoşunlarina qarşı müveffeqiyyetli yürüş emeliyyatlari aparmışdi.

Bu azömürlü hökumet üzvleri mühacirete mecbur olduqda, o da onlarla birlikde Istanbula ve sonradan 1917-ci ilde Berline getmişdi. Orada evvel müalice kursu keçmiş, sonra Almaniya ordusunün teyyarecilik mektebine daxil olmuşdur. Genc herbçi yorulmadan öyrenir, aviasiya texnikasına yiyelenirdi. Qısa müddet erzinde o, 33 defe uçuş keçirmişdi. Lakin yeniden ciddi şekilde xestelendiyinden, piyada qoşunlarina deyişilmişdi. Azerbaycan diasporasının bu genc uzvu Almaniya ordusundakı xidmet zamanı miltetinin herb sahesinde neye qadir olduğunu alman herbçilerine göstermişdi.

Ölkede geden inqilabi herekat zamanı Mehemmed Teqi xan Seypsiq şeherine gedib riyaziyyat ve musiqi tehsili almağa başlayır. (***Vallah, menim daha deyilecek bir sozum yoxdur. Men ancaq Mehemmed Teqi xanda olan qabiliyyete hesed apara bilerdim***). Tehsil aldığı dövrde bu azeri oğlu muellimlerinin ailesinde ele xoş teessürat yaratmışdi ki, muellimi ve müelliminin qadını Knayr sonralar, onun haqqında kitab yazmış, Mehemmed Teqi xanı "en necib iranlı" adlandırmışdi. (***Kim olur olsun, bele bir cavanin talantini qiymetlendirmemeye bilmezdi).***

M.Püsyan alman imperializminin qoşunlarinda xidmet etse de, imperializm aleyhine üsyanlari öz gözleri ile görür ve şübhesiz, özü üçün, vetenin azadlığı üçün netice cixarirdı.

Geri qayıdanbaş genc azeri zabiti Isveçe gelmiş, (***Bilmirem de, bu Isvec biz Azerbaycanlilari ozune niye bele cekir? Belke Siz bilirsiniz?)*** ora ile tanış olmuş, sonra Petroqrada yollanmışdi. Bu zaman Petroqrad Oktyabr çevrilişinden sonraki telatümler içerisinde idi. Ona da söz yoxdur ki, Rusiya bolşeviklerinin sinfi beraberlik, imperializm, müstemlekeçilik, milli zülm aleyhine yaydıqlari şüarlar, apardıqlari tebliğat 28 yaşlı alovlu azadlıq aşiqine tesirsiz qala bilmezdi. Yeri gelmişken qeyd edek ki, Petroqraddakı 1917-ci il oktyabr çevrilişinde M.Püsyanın bir sıra hemyeriileri, o cümleden meşhur inqilabçı Heyder Emioğlu ve qardası Süleyman Tarverdiyev de feal iştirak edirdiler.

Avropanı gezib dolaşmış, bir neçe sahede tehsil almış ve gözü bir çox heqiqetlere açılmış Mehemmed Teqi xan 1920-ci ilde Enzeli yolu ile Irana qayıtdı.

Deyilenlere göre, 1915-ci ilde Qacarlar dövletinin qerbindeki türk esgerleri marş oxuyarken ölkenin bütövlükde onlarin olacağıni söylediklerini eşiden zabit M.Püsyan evvel mektubla, sonra şexsen türk komandanına müraciet etmiş, qeti etirazını bildirmişdi. Marşın sözlerini deyişib qardaşlıq ruhuna salındığını eşiden ve sevinen komandir sonraki "'var olsun qeyretli, qehreman oğlu Mehemmed Teqi xan Püsyan!" cümlsine yene etiraz etmişdi.

Onun vetenperverliyini ve qehremanlığını hetta ölümünde böyük rol oynamış gizli polis reisi Bağır Amili ve Nasir Sesker de yazmışdir. Tarixçi M.Müstehidi ise yazır: "Tevazökarliq, utanmaq VE heyalılıq, iffet, alicenabliq, özünün terifine yol vermemek, xidmetlerini ve hünerlerini başqası izah ederken narahat olmaq **kolonelin** (fransizca "***polkovnik***" demekdir) bariz sifetlerinden idi".

Meliküşşüara Bahar Mehemmed Teqi xanın qaldırdığı üsyanın eleyhine olsa da, şexsiyyetini, cesaretini, vetenperverliyini terif etmişdi. Şair Bahar keçmiş dostunun heyat yolundan bahs ederek yazırdı ki, Mehemmed Teqi xan mühaciret dövründe Şeyx Hesen Tehrani ile dost idi. Men ve Tehrani Demokrat Firqesinden idik. M.Teqi xan da bu firqeye meylli idi ve ona inanırdı. Tehraninin evinde onunla görüşüb Xorasanda bir herbi-milli cemiyyetin merkezinin yaradılması barede gedirdi. Eslinde onun bu islerden ötrü üreyi gedirdi. O, kemali-memnuniyyetle bizim izahatımızı qabul etdi...

Demek lazımdır ki, olkede geden mürekkeb ictimai-siyasi prosesler merkezi hakimiyyeti xeyli zeifletmişdi. Eyaletlerin merkezdenqaçma meylleri, xüsusen de davam eden Şeyx Mehemmed Xiyabani *(Azerbaycan)* ve Gilan herekatı Tehrani sarsıtmışdi. Lakin, eyni zamanda bazi yerde xanlıq, feodalların özbaşınalığı kimi mürtece proses de inkişafda idi. O cümleden Xorasanda başıpozuqluq, quldurluğun el-ayaq açması iqtisadi-ticaret elaqelerinin gediş-gelişin pozulması ve ziyaret yollarinın qorxulu sekil alması liberal burjuaziyasının hökumete tezyiq göstermeye vadar edirdi. Neticede Müsuriddövle hökumeti bu eyaletde jandarm qüvvelerini güclendirir, özbaşınalığı aradan qaldırmaq üçün Mehemmed Teqi xani ora jandarm reisi göndermek mecburiyyetinde qaldı. 1920-ci ilin oktyabrinda polkovnik Meşhede gönderildi. Bu demokratik qüvvelerin qelebesi demek idi.

Kolonel M.Püsyan Meşhede geldikden sonra Demokrat Firqesinin üzvleri ile yaxınlaşır, onlarla iş aparmağa başlayır. O, yerli irticanın vali Qevamüsselteneye ve ingilis konsuluna arxalandığını bilirdi. Irticaya qarşı mübarize aparmaqda ise ona firqenin görkemli üzvlerinden Haci Mehemmed ağa Tahbaz Mehemmedhaşım Mirze Enser, Haci Hüseynağa Malik kimi liberal burjua-mülkedar nümayendeleri, mütereqqi fikirli ruhaniler, Meşhedde yaşayan Azerbaycan tacirleri, senaye sahibleri, esnaf ve qesbkarlar kömek edirdiler. Meşhedin görkemli senaye sahiblerinden Eli Xan, Mehemmed xan Emioğlu qardaşlari kolonelin maarif, medeniyyet sahesinde islahat tedbirlerini heyata keçirilmesinden ötrü maddi yardım etmeyi ohdelerine götürmüşdüler. Eyaletin yeni jandarm reisi "Milli komite" adlı teşkilat yaradaraq onun şöbelerini başqa sahelere de yayırdı. Tezlikle teşkilatın 3000-ne yaxın uzvu oldu.

M.Püsyan reisliye keçen kimi jandarmeriyanın büdcesini Qevamüsseltenenin cibine axmaqdan azad edib, idarenin xerclerine yöneltdi. Bu, Qevamüsseltene ile onun ilk toqquşması idi. Lakin Mehemmed Teqi xan azadlıq düşmeni Ehmed Qevamüsseltene ve ingilis konsulunun nümayişkerane şekilde cezalandırmaq istedikleri siyasi mehbuslari da azad edib irticaya ikinci zerbe vurdu. Üçüncü zerbe

daha ağır idi: Azeri türkü Mehemmed Teqi xan yüz iller boyu Xorasanda özbaşınalıq eden, indi de vali ve ingilis konsulu terefinden bir çox meqsedler üçün istifade olunan feodal herbi qüvvelerini dağıtmışdi. (***Kerim bey, mene gore normal o insandir ki, onun dusmeni var).***

Kolonel Meşhede gelerken Tehrandan özü ile bir deste zabıt getirmişdi. Ekseriyyeti azeriler olan bu destenin terkibine mayor Ismayil xan Bahadır, mayor Elirza xan Şamşir, sultan *(kapitan - N.H)* Seyid Möhsün xan Kazimi, Sultan Eliesger xan Rifet, sultan Qulamhüseyn xan Saqfi, Sultan Eliesger xan Qacar, sultan Hüseynxan Dövletşahi, sultan Mirze Eli xan lyzedi, naib *(leytenant - N.R.)* Ağaxan Xoşgin, naib Haci xan Tefrisi, naib Mehemmed xan, naib Celal xan Zemanı, sultan Nur Elineqi xan Hekimi, naib Elisefer xan Musar, naib Davud xan Sinaqi, naib Teqi xan Tavus, sultan Qulamhüseyn xan Peder, sultan Ehsanulla xan Azerexiş ve b. daxil idi.

Polkovnikin ilk gördüyü islerden biri vali Qevamüsselteneni hebs etmek oldu. Meşrute herekatından uzu beri çirkin emelleri, azadlıq eleyhine gördüyü islerle özünü lekelemiş bu siyasi fitnekarin herbi qaragüruhu sarsıtmaqla yanaşı mütereqqi qüvvelere qol-qanad verdi. Qevamüsseltene ile beraber 40 qatı irticacı da hebse alınıb, emlakı müsadire edildi. Bunlari gören Xorasan ehalisi şenlik içinde idi.

---

Lakin atasının yaxın dostu, demokrat fikirli Haci Mehemmed Tahbaz, Gilan Respublikasının Xarici Isler naziri M.C.Pişevari ile görüşlerden aldığı teessüratla Mehemmed Teqi xan daha derin, içtimai-siyasi, iqtisadi islahatlara el atırdı. O, zabit Qulamhüseyn xan Pederin başçiligı ile "Milli xezine" adlı fond yaratmışdi. Soyguncu, zülmkar feodallardan müsadire edilenler bazi liberal dövletlilerin, xeyriyyeçilerin verdikleri iane, hemçinin, Türküstandan mühacirlerin Aşqabaddan gönderdikleri qızıliar bu fondda saxlanılırdı.

Şübhesiz ki, irtica da elini eli üzerine qoyub oturmamışdı. Hebs olunub Tehrana gönderilen Qevamüsseltene Seyib Ziyanın devrilmesinden sonra baş nazir postunu ele keçirib, keçmiş cinayet seriki Necdulselteneni Xorasana vali gönderdi. Lakin vilayetde anti-demokratik ehval-ruhiyyeni qızışdırdığına göre o da hebse alınıb mülki müsadire edilerek "Milli xezine"ye verildi. 1921-ci il 25 aprel tarixli Meşhed zehmetkeşlerinin ezemetli nümayişi sabahısı gün aprelin 26-da Mehemmed Teqi xanı qeti teleble Xorasan valiliyine getirdi. ***(Bu muveffeqiyyetleri o artiq 30 yasinda olanda elde etmisdi. Ele bil her sey ona gore bele tezlikle bas verirdi ki, Mehemmed Teqi xan onsuz da cox az yasayacaqdi).***

Yeni vali derhal daha derin islahatlara el atdı. Bele ki, gündüzler “qoruyub", geceler qulduriuq eden Qevamüsseltene tüfengçileri, hemçinin müstebid memurlar işden uzaqlaşdırılıb evezinde o dövrün resmi senedlerinde "Demir deste”, "Fedai", "Kolinelin feda**isi"** adlandırılan “Xususi qvardiya teşkilatı" yaradıldı. “Xususi qvardiya"nı seciyyelendiren çağdaş müelliflerden biri yazırdı: "Demir deste" merhum kolonelin reşadetli ve şücaetli, cavan azerbaycanlı fedailerden teşkil olunmuşdu. Çox az ordularda bele neferler ola biler. Çünki neçe yüz neferlik bu deste kolonella münasibetde neçe yüz bedende olan bir ruh kimi idi ve öz imtahanlarini da bele verdiler".

Xorasan jandarmeriyasının esasını teşkil eden qruplardan biri de "kave partizan ordusu" idi. Mehemmed Teqi xan Püsyana *(general Hemze xan Püsyanın oğlu)* tapşırmışdi. O ise bu sahede yüksek tecrübeli herbçi idi.

Xorasanın genc valisi, Azerbaycan diasporasının feal uzvu, yaxın gelecekde üzleşeceyi irtica qüvvelerinin nehengliyini, doyuşlerin amansızlığını nezere alıb Meşhedde serjant, leytenant yetişdiren herbi mekteb açdırmışdi. Oranı qurtaranlarin bir hissesi sonradan baş qaldıran irticaya qarşı doyuşlerde qehremanlıqlar gösterdiler. M.Püsyan özü de hemin mektebde müxtelif ixtisaslardan ders deyirdi. Telebelerinden polkovnik Sefapur vetenperverliyi, fedakarlığı doyuş qabiliyyetini müelliminden öyrendiyini yazırdı.

Kolonel Soltanzade merkezin Xorasandakı arxa-dayağını sarsitmaq, yerli irticanı sındırmaq üçün 5 min silahli döyüşçüye malik Hezare elinin başçısı, böyük feodal Sücaülmülkü meğlub edib, Efqanıstana qaçırmış, heç kimi tanımayan Salar xana zerbeler vurub istehkamını almış, xanlarin illerden beri vermedikleri vergileri toplamışdi.

Derebeyliyin ortadan qaldirilmasının hem imam Rza ziyaretgahının canlanmasına, hem ticaretin artmasına, hem de yerli senayenin genişlenmesine mühüm kömeyi var idi. Ölkenin "Aftabe-Şerq", "Minu", "Ruhul-qüds" adlı qezetleri genc valinin bu hereketlerini imam Rzaya derin mehebbeti ile izah edirdiler. Mehemmed Teqi xan sanki vaxtın azlığını irticanın bütün azgınlığı ile hücuma keçeceyini başa düşüb telesir, ***(beli, o telesirdi)*** eyni vaxtda bir neçe ağır işi görürdü. Vali bir yandan senaye yükselişi üçün meslehetleşmeler aparir, bir yandan yetimxanalar açaraq sahibsiz uşaqlari dövlet himayesine alır, bir yandan Xorasanı mektebler şebekesine bürümeye çalışır, Meşhedde, Nişapurda ve bazi kendlerde ibtidai, peşe, orta, hetta ali mektebler açdırirdı. Meşhed mekteblerinde tarix, coğrafiya, hendese, musiqi, hesab fenleri keçirilirdi, jandarmlarin uşaqlarının ayrica tahsil proqramı hazırlanmışdi. Hemçinin, xestexanalarin açılmasında kend ve qesebelere 2-3 neferlik seyyar tibb destelerinin gönderilmesinde hekim ve kolonelin xidmetleri misilsiz idi. ***(Allah Sene done-done rehmet elesin, Teqi Xan!)***

Üsyan rehberi başqa işlerle yanaşı medeniyyet, incesenet ve edebiyyat sahesinde de tedbirlere el atırdı. Bu işde, şübhesiz ki, eyaletdeki çoxsaylı Azerbaycan diasporası üzvleri ona kömek edirdiler. O, bir insan qüvvesinin ve şüurunun verdiyi imkan daxilinde her bir işi görürdü. Ingilterenin Meşheddeki konsulluğunda toplanmış silahlarin müsadiresi bu qebilden idi.

Lakin başda Qevamüsseltene olmaqla, Tehran hökumeti ne fars şovinizmi, ne yerli qaragüruh, ne de ölkeni soyub-dağıdan xariciler bu azeri oğlunun Xorasanda, gelecekde ise belke de bütün Iranda hakimliyine döze bilmezdiler. Onlar tesadüflere ümid bağlamadan her cür texribat işleri aparirdilar". Qevamüsseltene vilayete tez-tez casuslar gönderir, onlari valilikde, jandarm, polis idarelerinde, müxtelif müessiselerde, teşkilatlarda vezifelere düzeltdirirdi. Bele texribatcilari zabitler arasında yerleşdirmeye de müvaffiq olmuşdu. Etrafda ise milli-azadlıq herekatlarina, demokratik qüvvelere ağır zerbeler vurulmaqda idi. Vaxtile Mehemmed Teqi xanı Xiyabani herekatı aleyhine döndermek isteyenler bu arzuya çatmasalar da, 1920-ci il sentyabrin 14-de üsyanı qan içinde boğmuşdular. 1921-ci il oktyabrin evvellerinde Gilan Respublikası da yıxıldı. Evvelce Mirze Kiçik xan, dalınca meşhur inqilabçi Heyder Emioğlu öldürüldü. Bu qanlı aksiyalarda Qevamüsseltene ile yanaşı herbi nazir Rza xan Pehlevini ve qatı solcu, dinsiz Ehsanulla xanın rolu az deyildi. Dinsiz herekatlari ile herekatı laxladan inqilabçı Ehsanulla xan qaçıb Aşqabaddan Xorasan

üsyançılarina öz kömeyini teklif etdikde, veziyyeti ağırlasan üsyan rehberi bele cavab vermişdi: ***"Sizin yaxşılığınızı istemirem, pislik elemeyin"***.

Rza xanın ise qehraman azeri oğlu ile ayri haqq-hesabı var idi. Hele 1915-ci ilde Hemedana jandarm reisi gönderilmiş M.Püsyan şeherde özbaşnalıqlar toreden kazaklarin qarşısını almaq üçün komandirleri Rza xana teleb göndermişdi. Teleb cavabsız qaldıqda Mehemmed Teqi xan Rza xanın qerargahına girib kazaklari terksilah etmiş, komandiri hebse almışdi. Üç gün hebsde yatan Rza xan azğınlıqlara son qoyan fermanı imzalamağa mecbur olmuşdu.

Indi Tehran hökumetinden emr alan Rza xan 5 min qoşun, çoxlu top, pulemyot ve başqa silahlarla Meşhed üzerine yürüyürdü. Yerli zaferanlı, sablu tayfalarının herbi qüvvesi de dovlet kazak ordusuna qoşuldu. Qevamüsseltenenin 700 naferlik texribat destesi artıq öz işini görmüşdü. Gürgan jandarm destesi ve qoçan xanlari da üsyançılar aleyhine çıxırdılar. Xain jandarmlar, o cümleden, texribatçılar terefinden camaatın soyulması, xalqdan zorla vergi alınması, üsyancilarin yerlerinin deyişdirilmesi, jandarmlarin bile-bile esir verilmesi hereketı zeifledir, müdafieni boşaldır, Meşhedde olacaq hücumun yollarini acirdı. Bunun esl baiskarlari arasında kürdler mühüm rol oynayırdı. ***(Kurdleri hec vaxt yaddan cixartmayin. Iranda onlari bizlere qarsi lazim olanda istifade etmek ucun saxlayirlar).***

Mehemmed Teqi xan dörd terefden mühasireye alınmışdi. Xeyanetlerin ise ardı-arası kesilmirdi. Üsyan rehberi Ceferabaddan kömek gözlediyi zaman oradakı jandarm başçılari Hesen xan Politik ve Seyid Hasen xan Fexrai Meşhede gönderilecek merminin, güllenin qarşısını aldı. Üsyanın son dayaq menteqesi rabitesiz, sursatsiz qaldı.

Vaxtile Oktyabr çevrilişini alqışlayan, RSFSR-in Tehrana gönderdiyi selahiyyetli sefiri F.A.Rotşteyni qabul edib, şerefine ziyafet veren, Leninin sağlığına bade qaldıran, sefiri paytaxta aparmaq üçün bir vzvod jandarm ayıran ve onlari mükafatlandıran kolonel M.Püsyan Aşqabada, Bakıya teleqramlar gönderib kömek istediyi zaman ümidsiz veziyyete düşmüşdü. Bolşeviklere inanan Mehemmed Teqi xan onlari yalnız son anda tanımışdi. ***(Ruslar hec vaxt istemezler ki, onlarin qonsuluqlarinda Turk dovletleri olsun).*** RSFSR Xalq Xarici Isler komissari Tehrana F.A.Rotşteyne gönderdiyi 5 oktyabr 1921-ci il tarixli, 8348/8 saylı teleqramında yazırdı: "Bizim Irandakı siyasetimiz şahla şahlıq eleyhine çıxanlar arasındaki mübarizede son derece ehtiyatlı olmaq, biterefliyi saxlamaq, daxili işlere qoşulmamaqdır. Umid edirik ki, Kirov ve herbi komissiya anlaşılmazlığı aradan götürecek".

Bu kiçik teleqramın arxasinda Gilan ve Xorasan üsyanlarinın felaketli sonluğu gizlenirdi. Bunu hemin senedler mecmuesinin arxasında verilmiş qeyd açiq-aydın bellendirir. Qeydde gösterilir ki, Sovet hökumeti 1920-21-ci illerde Gilan ve qonşu şimali Iran *(cenubi Azerbaycan nezerde tutulur - N.R.)* eyaletlerinde üsyançi destelerle şah ordulari arasındaki döyüşlere qarişmağın qarşısını qeti şekilde almaq üçün S.M.Kirova gösteriş verib.

Bu nezaretin heyata keçirilmesi üçün Sovet hökumeti 1921-ci ilin oktyabrinda Bakıya S.M.Kirovun serencamına Harbi Inqilab Şurasının xüsusi harbi komissiyasını gönderib.

Doğrudan da, Bakıdan Xorasan herekatına kömeye geden cenubi Azerbaycanlı fehle destelerinin qarşısı türk xalqlarının qeddar düşmeni S.M.Kirov

terefinden alınmışdi. Yaranışının ilk günlerinde celbedici, parlaq beyannameler, şüarlarla dünya xalqlarina müraciet eden Sovet hökumetine heç de beraberhüquqlu, azad, müttefiq Şerq dövletleri deyil, müstemlekeler lazım idi. Bele olmasaydı, bolşevik S.Orconikidze Meşrute hereketını dağıtmaz, Xiyabani üsyanı teklenmez, ermeni Mikael Avatesyan *(Sultanzade)* adı ile Iran KP-nin rehberliyine soxulmazdı. Heyder Emioğlu ise öldürülmez, Mehemmed Teqi xan qaragüruh elinde qalmazdı.

Temamile teklenib mühasireye düşen Mehemmed Teqi xan azeri türklerinin "Demir deste"den olan son üzvleri de sıradan cixdıqdan sonra bir neçe yerinden yaralandı ve öldürüldü. ***(Kerim bey, Turklerde bele bir misal var ki, "Esl Turk o kesdir ki, oz eceli ile olmesin". Tebii ki, Mehemmed Teqi xan Soltanzade Pusyan esl Turk oglu idi).*** Düşmenler onun basını kesib Qevamüsseltene ve Rza xan kimi celladlardan mükafat almaq isteyirdiler. Lakin, bu qehremanın ölümü de geniş azadlıq nümayişine çevrildi. Azerbaycanın merd oğlu Mehemmed Teqi xan Soltanzade Püsyan ebedi olaraq Xorasan tarixinde azadlıq, demokratiya yolunun qehremanlıq simvolu kimi qaldı ve öz xalqına, vetenine de şöhret abidesi qoydu. ***(Yaxsi ki, vaxt asiri Azerbaycanda bele sexsler dogulurlar, yoxsa biz neylerdik? Sonunda onu yazmaq isteyirem ki ,arzum budur, novbeti defe olacaq inqilabda evvelki sehvler bir daha edilmesin ).***

Nazim Rizvan